

*Musa Xanbabazadə*
*filoloq-ədəbiyyatşünas,*
*AJB-nin üzvü*

# İstiqlal şairi

**Müstəqillik! İlk inamım, ilk həsrətim!**
**Müstəqillik! Xalqın məslək bayrağıdır.**
**Müstəqillik - hər ölkənin, məmləkətin**
**Zülm-əsarət orbitindən çıxmağıdır!**

*(Sabir Rüstəmxanlı)*

MÜSTƏQİLLİK! Yasaqlanmışdı. Qadağalanmışdı. Önünə sədlər-sərhədlər çəkilmişdi bir zamanlar. Dustaq idi ürəklərdə. Məhkum idi beyinlərdə. Cəzalandırılırdı. Qorxudulurdu. Hədəfləndirilirdi bu sözün vurğunları. Bu sözün heyranları. Təqiblənirdi. Təhdidlənirdi bu sözün oduna alışıb-yananlar. Bu sözün uğrunda can qoyanlar. Məşəqqət və işgəncə yaşadılırdı bu sözü toplumun beyninə-ruhuna, başına-ürəyinə nur-işıq seli tək yeridənlərə, axıdanlara, sığışdıranlara!

MÜSTƏQİLLİK! Qorxurdu bu sözdən zor-güc sahibləri. Əndişələnirdi bu sözdən imperiya-monarxiya hərisləri. Vahimələnirdi bu sözdən xalqı-milləti qula-köləyə, nökərə-lakeyə çevirən cırtdan padşahlar, yapma-saxta allahlar. Xoflanırdı bu sözdən hakimiyyətlərini cəbr və cəza, zorakılıq və qəsbkarlıqla qoruyan yalançı-talançı, soyğunçu-yağmaçı xaqan və sultanlar, iradəsiz-qətiyyətsiz prezident və krallar.

Edam kürsüsünə könüllü qalxmaq idi. Cəllad kötüyünə könüllü baş qoymaq idi sovet dönəmində MÜSTƏQİLLİKdən danışmaq, müstəqil fikirlər səsləndirmək, müstəqil düşüncələr sərgiləmək.

MÜSTƏQİLLİK havasına-sevdasına tutulan başlar üstündə Domokl qılıncıtək asılmışdı imperiyanın zəhmi və zabitəsi, cəbri və cəzası, zoru və şiddəti, ölüm və zülm zəngləri.

Qorxmurdular. Çəkinmirdilər. Vahimələnmirdilər bu sözdən yalnız cəsarətli-cürətli, qətiyyətli-səbatlı ziyalılarımız, xüsusən həbsə və ölümə, cəbrə və cəzaya təbəssümlə "Xoş gəldin!" deyə qucaq açan şairlərimiz. Əksinə, qürurlanırdılar. İftixarlanırdılar. Fəxarətlənirdilər. Qanadlanırdılar onlar bu sözün içində gizlənmiş böyük mətləblərdən, ictimai-siyasi-fəlsəfi mahiyyətdən və bu söz, bu sözün ictimai-siyasi anlamı həmin sairlərin poetik düşüncə sistemində aparıcı-öncül istiqamət idi. Bəxtiyar Vahabzadə, Balaş Azəroğlu, Söhrab Tahir, Məmməd Araz, Xəlil Rza... poeziyası məhz müstəqillik və milli azadlıq notlarına köklənmiş və istiqlal ideyalarına səfərbərliyin ön sıralarında yer almışdır.

Adlarını yuxarıda sıraladığım böyük istiqlalçılar pleyadasında Xalq şairi SABİR RÜSTƏMXANLI ictimai çəki və sanbal, mövqe və xidmət, fəallıq və aktivlik, cəfakeşlik və əzabkeşlik baxımdan xüsusilə seçilir, xüsusilə fərqlənir.

Müstəqillik və istiqlal mücadiləsində Sabir Rüstəmxanlının fikir və ideya ideoloqları, müəllim və öndərləri idilər B.Vahabzadə, İ.Şıxlı, M.Araz, X.Rza, S.Tahir... Faydalanırdı. Bəhərlənirdi. Təsirlənirdi. Tərbiyələnirdi bu böyük söz ustadlarının milli oyanış və dirçəlişə, milli intibah və müstəqilliyə çağıran vətəndaş qayəli və məramlı, vətəndaş qeyrətli və cəsarətli, suverenlik və azadlıq pafoslu say-seçmə poetik əsərlərindən.

Sərt qadağalara-basqılara boyun əymədi, diz qatlamadı Sabir Rüstəmxanlı. Çəkiməmdi imperiyanın dürlü-dürlü işgəncə və əzablarından, dəhşətli cəza və cəbr üsullarından. Öldürmədi, susdurmadı müstəqillik duyğusuna körüklənən, müstəqillik ovqatına köklənən ürəyinin haraylarını, vicdanının fəryadlarını. Aşdı qorxu sərhədlərini. Ayaqladı sınır qadağalarını. Və bir gün də Xalq şairi Xəlil Rza Ulutürk demişkən, gördük ki, Sabir Rüstəmxanlı "atıldı cəngə //Döndü xalqımızı oyadan zəngə".

Bəli, cəng-cidala, vuruşa-savaşa atıldı Sabir Rüstəmxanlı. Atıldı SÖZ adlı dəyərlə, ŞEİR adlı kəsərlə. Atıldı "Müstəqillik! İlk inamım, ilk həsrətim" amalıyla. "Gələ gözlədiyim xəbərim gələ// Gələ o əbədi zəfərim gələ" inamıyla. Atıldı Azərbaycanı SSRİ-dən qoparmaq iddiası-hikkəsiylə. Azərbaycan imzasını dünya ölkələri imzasında görmək arzusu-istəyilə. Və illərlə uğrunda qələm çaldığı bu böyük amalına-amacına qovuşdu da! Nəinki qovuşdu, hətta Müstəqillik Aktının hazırlanmasında və bu Akta ilkin imza atanlardan oldu!

Azadlıq yanğılıdır. Müstəqillik təşnəlidir. İstiqlal savaşlıdır Sabir Rüstəmxanlı fitrətən-təbiətən. Hər üç mənəvi-əxlaqi keyfiyyət ruhunda, qan yaddaşında, genetik kodundadır Sabir Rüstəmxanlının. Sabir Rüstəmxanlı şəxsiyyətinin bu üç ilahi-ali keyfiyyəti hopub S.Rüstəmxanlı poeziyasına, S.Rüstəmxanlı yaradıcılığına. Bu üç ali keyfiyyəti mümkünsüzdür bir-birindən ayırmaq, bir-birindən əlahiddə düşünmək. Və bu üç anlam həm Sabir şəxsiyyətini, həm də Sabir poeziyasını (yaradıcılığını) tamlaşdırır, bütövləşdirir.

2 milyon 800 min kvadrat kilometr idi Azərbaycan ərazisi Şah İsmayıl Xətai dövründə. Ölümündən sonra qoruya bilmədik bu möhtəşəm dövləti. Qoruya bilmədik ərazi bütövlüyünü. Saxlaya bilmədik müstəqilliyini. İtirdik gələcək istiqlalını. O çağdan uduza-uduza, parçalana-parçalana, paralana-paralana, pay-puş edilə-edilə yol gəlir Azərbaycan. Qeyrətdənkəm başbilənlərimiz barışdılar bu parçalanma ilə. İtirə-itirə kiçilməyimizlə. Razılaşdılar bu pay-puşla, kiçilə-kiçilə əzilməyimizlə. Əzilə-əzilə mütiləşməyimizlə- məzlumlaşmağımızla. Məzlumlaşa-məzlumlaşa azadlıq, müstəqillik, istiqlal idealarına laqeydlik-biganəlik sərgiləməyimizlə!

Sabir Rüstəmxanlı "YETİM ADLAR", "BAŞINI AŞAĞI SAL, İŞİNİ GÖR", "GƏRƏK BİZ BACARAQ", "BARIŞIQ", "ÖLƏN QORXUMUZ"... şeirlərində tarixi cinayət sayır başbilənlərimizin ədalətsiz barışıqsülh siyasətini. Birtərəfli razılaşma əhdnamələrini. Şair bu barışıq-razılaşmaları həm azadlığa, müstəqilliyə və istiqlala qəsdzərbə, xəyanət, həm də irtica-işğal ilə barışıq cəhdi-istəyi kimi mənalandırır. Sabir Rüstəmxanlı adlarını çəkdiyim və çəkmədiyim şeirlərində çox doğru-düzgün ümumiləşdirir ağır sosial-siyasi, əxlaqi-mənəvi nəticələrini bu barış və razılaşmaların: Azərbaycan vahidliyini, bütövlüyünü, müstəqilliyini parçaladı-paraladı; məmləkət adamlarında inamsızlıq-etibarsızlıq toxumu səpdi; məmləkət adamlarında azadlıq, müstəqillik və istiqlal duyğularını korşaltdı, canyanğısını soyutdu; millətin-xalqın "başına qoruxu daşları yağdırdı"; gəlmələri atlı, bizləri piyada qoydu; yağı-yağmaçıları ağgünlü, bizləri qaragünlü etdi; özümüzü özümüzə unutdurdu, özgələri tanıtdırdı bizlərə və s.

**...Barışmışıq-bölünmüşük ostan-ostan,**
**Zəmi-zəmi, bostan-bostan.**
**Bir az Şərqdən, bir az Qərbdən,**
**Yüz imandan, yüz məzhəbdən**
**Gündə bir şey qapa-qapa**
**Özümüzü itiririk, özgələri tapa-tapa!**

Etirazlanır Sabir Rüstəmxanlı "BARIŞIQ" şerində: ədalətsiz sülh danışıqlarına; BMT-də səsimizin tanınmamasına (eşidilməməsinə); özləri kölə ikən bizlərə ağalıq edənlərə; 37 fəlakətinə və 46-nın müsibətlərinə; doğmalar arasında nifaq və ayrılıqlar yaşadanlara... Bu və buna bənzər əxlaqi-mənəvi, iqtisadi-siyasi faciələr bir daha təkrarlanmasın deyə Sabir Rüstəmxanlı yaddaşları ayıq-sayıqlığa çağırır və dönə-dönə tövsiyə edir: hökumətin yeritdiyi siyasətə fəal vətəndaş mövqeyində durmağı; iqtidarın ölkə vətəndaşlarına müraciət və çağırışlarına tənqidi münasibət bəsləməyi; yurdun-məmləkətin taleyinə laqeyd-biganə qalmamağı; zülmə-zülmkara susmamağı və s.



**... Mən görürəm ta susmağa,**
**Ta yatmağa haqqım yoxdur!**
**Özüm tarix meydanında enə-enə**
**Özgələri ucaltmağa haqqım yoxdur!**
**Haqqım yoxdur!**

İstiqlalı, müstəqilliyi olmur bölünmüş-parçalanmış Vətənin. Dar ağacından asılır azadlığı. Qışqırmaq-bağırmaq istəyir - qıfıllanır dil-dodağı. Qaçmaq-yüyürmək istəyir-buxovlanır əl-ayağı. Bütövlüyü baltalanır. Pərən düşür yer üzünə övladları. Kimi "tatar", "türk" adlandırır bizləri. Kimi "iranlı", kimi "əcəm". Kimi "tərəkəmə", kimi "qızılbaş". Ayrılıq, hicran, qəriblik yazılır ömürgününə bu didərginlərin. Qardaş səsinə - nəfəsinə bu həsrət tamarzılar gah gülür, gah ağlayır vaxtlı-vaxtsız. Yaşayırlar talesiz-baxtsız. Yaşayırlar sükut içində. Dözüm içində.

**Cənublu, Şimallı-o tay-bu taylı**
**Hicranı əsrlə başabaş olan**
**Dərbəndli, kərküklü, qarayazılı,**
**"Türk", "tatar", "iranlı", "əcəm", "müsəlman",**
**Gah da "tərəkəmə", "qızılbaş" olan**
**...Fikirli qardaşlar, qəmli bacılar,**
**Sizin sükutunuz yandırar məni,**
**Sizin dözümünüz yandırar məni.**

Bu gün kimi apaydın həqiqətləri Sabir Rüstəmxanlı bir sıra şeir və poemalarında ("YANDIRAR MƏNİ", "BU QILINC DA SƏNİN, BU DAŞ DA SƏNİN ", "AÇILAN YOLLARIN MAHNISI", "ÜRƏYİN MÖCÜZƏSİ", "BÜTÖVLÜK" və s.) önləyir, oxucuları vətənin tarixi faciələrinə yönəldir və faciələri sağaltmağın və təkrar olunmamağın yollarına da işıq tutur: toplamaq gərəkdir bir tamın (millətin) dünyaya səpələnmiş qranit qırıntılarını, almaz param-parçalarını (fərdlərini). Bu zərrələr, bu qəlpələr (fərdlər) bir-birinə qaynaqlandırılmalıdır. Birləşdirilməlidir. Bütövləşdirilməlidir. Vahidləşdirilməlidir. Cəmləşdirilməlidir bir bayrağın işığı altında. Səfərbər-müsəlləh edilməlidir azadlıq, müstəqillik, istiqlal və milli özünütəsdiq savaşlarına. Qırılmalıdır vətənin sükutu. Yerindən dəbərdilməlidir vətənin ətaləti. Millət sükut daşını atmayınca zülm və zalım var olacaq. Millət dözüm buzunu sındırmayınca zalım azğınlaşar-quduzlaşar. Zülməzalıma baş əyən millət öz istiqlalına qovuşmaz:

**Qolları Araza körpü olmamış,**
**Sınıq körpüləri su altda qalan**
**Fikirli qardaşlar, qəmli bacılar,**
**Sizin sükutunuz yandırar məni,**
**Sizin dözümünüz yandırar məni!**

İstiqlalçı şeirlərində ("ACI XATİRƏ", "BİR CİBİN VIZILTISI", "MƏN DEMƏDİM", "AZƏRBAYCAN" QƏZETİNƏ GÖZAYDINLIĞI", "YAZILMAYAN ŞEİRLƏRİM" , "ƏDƏBİ SEVDA", "TANRI DAĞI..." qəzəblidir-hiddətlidir Sabir Rüstəmxanlı müstəqilliyimizə-istiqlalımıza dodaq büzən, qənim kəsilən daxili-xarici bədxahlara. Qısqanclıqla, paxıllıqla, ikrah və nifrətlə yanaşırdılar müstəqillik və istiqlalımıza daxili bədxahlar - beyni-ruhu işğal kommunistlər. Onlar istəmirdilər SSRİ-nin fəaliyyətinə xitam verilsin. İttifaq dağılsın. Azərbaycan müstəqilləşsin. Ay-ulduzlu üçrəngli bayraq vətən göylərində dalğalansın. Gerbimiz, himnimiz, pulumuz, ordumuz olsun və s. Çox çalışdılar. Çox qapılar döydülər. Böyük qardaşlarına minnətə-xahişə çox getdilər. Fəqət qoruya, hifz edə bilmədilər SSRİ-ni. Duruş gətirə bilmədi SSRİ müstəqillik-bağımsızlıq savaşlarına. Azadlıq-istiqlal vuruşlarına və nəhayət, son qoyuldu 1991-də Sovet i İttifaqının ("it tifaq"ının) varlığına.

Dünən müstəqilliyimizə güllə atanlar, istiqlalımıza düşmən kəsilənlər, üçrəngli bayrağımıza arxa çevirənlər, alovdilli gerbimizə rişxəndlə baxanlar bu gün istiqlalçıların imzaladıqları Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının işığına toplaşır, özlərini müstəqilliyin çarçıları-qurucuları-bərpaçıları kimi təqdimetmədə dəridən-qabıqdan çıxır, fəxri kürsülərdə yertutmada canfəşanlıq edir və çox hallarda istəklərinə nail də olurlar.

Belə "istiqlalçı"lardan birinin mənəvi portretini təqdim edir oxuculara Sabir Rüstəmxanlı "ACI XATİRƏ" şerində: budur, sinə gərib kürsüyə. Dayanıb özündənrazılar kimi. Alıb şir-pələng duruşu. Danışır ağzı köpüklənə-köpüklənə Əl-qol atır sağa-sola. Qınayır ziyalıları. Qarasınca danışır onların. Söyür yazıçıları. Qara yaxır ünvanlarına. Heçə endirir yazdıqlarını. Tüpürür əqidəli-məsləkli kəslərə. Böhtanlayır-şərləyir nüfuzluları. Ləkələyir-kölgələyir dərrakəağıl sahiblərini. Çirkin niyyətlərinə xalqı inandırmaq üçün Allahdan, Qurandan belə sitatlar gətirir... Şerin sonluğunda Sabir Rüstəmxanlı tünd boyalarla aşkarlayır kürsüdəki bu vətənşüvənin əsl kimliyini, hansı yuvanın quşu olduğunu.

Sən demə, bu "istiqlalçı" qəhrəman "tapşırıqla önə atılan qulmuş," halal işimizə haram qatanmış", "bir əl quzusuymuş", "hər gün yuxarıdan dərs-təlimat alanmış" və s.

**Tapşırıq qulları önə atıldı,**
**Halal işimizə haram qatıldı.**
**Bir əl quzusudu kürsüdəki şir,**
**Hər gün yuxarıdan dərs alıb gəlir.**
**Millət xəbərsizdi-dərdinə yanır,**
**Tülkü həccə gedir- millət inanır.**

**(ardı 13-cü səhifədə)**

# İstiqlal şairi

(əvvəli 11-ci səhifədə)

"Acı xatirə" şerindən çıxan konkret nəticələr: bu səpkili "istiqlalçı"lar: a) təhlükə-qorxudur müstəqilliyimizə; v) Vətənin qeyrətini çəkməz; c) satqın-casus, nökər-lakey xislətlidirlər: ç) özlərinin sözü-fikri olmaz; "ağa"larının dili-ağzı ilə danışarlar və s.

Real fakt dayanır Sabir Rüstəmxanlının "AZƏRBAYCAN" QƏZETİNƏ GÖZAYDINLIĞI" şerinin nüvəsində. Həqiqətdir ki, saysız-hesabsız təqib-təhdidlərlə, hədə-qorxularla, basqı və hücumlarla üzləşib Sabir Rüstəmxanlı istiqlal mücadiləsində. Üz-üzə, göz-gözə dayanıb milli satqınlarla. Addım-addım izləyib onu casus-agent şəbəkəsi. Vaqon-vaqon şər-böhtan atıblar ünvanına. Hədələnib ölümlə, sürgünlə, zindanla. Dözüb hamısına. Ayaqlayıb hamısını. "Bir cibin vızıltısı" hesab edib böhtan və böhtançıları. Casus və satqınları. Fikri-mayası qısırları. Məddah və şarlatanları. Böyüklərə züy tutanları.

1989-da nəşrə başladı "Azərbaycan" qəzeti Sabir Rüstəmxanlının baş redaktorluğu ilə. Bomba kimi partladı qəzet ilk sayından. Yazdı həqiqətləri. Xalqa çatdırdı imperiyanın gizlinlərini. Zəlzələ yaratdı fikir-düşüncələrdə. Silkələdi kabinetləri. Zingildətdi hökumət telefonlarını. Qəzəblənirdi respublikanın başbilənlərini. Hiddətləndirdi Kremli. Qəti əmr verdi Moskva qəzetin bağlanmasına. 1-ci katib çağırdı yanına baş redaktoru. Əvvəl dilə tutdu. Sonra yalvardı. Daha sonra hədələdi baş redaktoru. "Öz ömrünü qapadırsan qapatmasan bu qəzeti". Çəkinmədi. Qorxmadı. Addım atmadı geriyə. Sarsılmadı. Sınmadı baş redaktor hədələrdən. Əksinə, iradə qoydu ortalığa. Sərt, qəti, amansız cavab verdi 1-ci katibə: "Sizin bu dünyadan xəbəriniz yoxdur deyən//Millətinə haqq istəyir millətimi qul eləyən".

Bu fakt, bu tarixi həqiqət, yəni 1-ci katiblə baş redaktorun qısa, lakin gərgin görüşü "Azərbaycan" qəzetinə gözaydınlığı" şerinin rüşeymi, doğuşu olur.

Döyüşürdü. Vuruşurdu. Çarpışırdı "AZƏRBAYCAN" Sabir Rüstəmxanlı ilə çiyin-çiyinə istiqlal yollarında. Qopmuşdu. Uzaq düşmüşdü hər ikisi qorxu və hədələrdən. Ətaləti, yorğunluğu, köləliyi üstündən atmışdı hər ikisi.

İldırıma, tufana dönmüşdü. Zülmün-zülmkarın yaxasından yapışmışdı hər ikisi. Qılınc, qurşun idi.

Silah, qoşun idi hər ikisi. Ağ kəfənə bürünmüşdü. Əzablara-işgəncələrə hazır idi hər ikisi. Böhtanlara qalxan-sipər etmişdi ürəyini hər ikisi:

**Ətalətdən silkələnib yorğunluğu ata bilsən,**  
**Yenə elə aşıb-daşan okeansan.**  
**Köləliyin başı üstə bir tufansan!**  
**İldırımsan, yaxacaqsan!**  
**Sən bu zülmün sarayını yıxacaqsan!**  
**Qılınca dön, qurşuna dön,**  
**Sən silahlan, qoşuna dön!**  
**Boğazına kəfən dola, əzabları al gözünə,**  
**Ürəyini qalxan elə**  
**Hər gün böhtan süngüsünə!**

Əynində döyüş paltarı savaş meydanlarına atıldı "Azərbaycan". Əlində topdan da, tankdan da güclü bir silahla-Allah qüdrətli, ildırım kəsərli SÖZlə. Bu SÖZ oyatdı mürgülü başları. Bu SÖZ diyirlətdi dərələrə yolumuzdakı yekə daşları. Tərpətdi illərin diri ölülərini. Sındırdı imperiyanın qana susamış qart canavar dişlərini bu SÖZ:

**İlk sayında bomba gücü, zəlzələlər tərpənişi,**  
**Sanki tilsim qırılıbdı. Əjdahanın sınıb dişi.**

Kabinetlər silkələndi bu SÖZün zəhmindən. Şirmayı dəstəkli telefonlar zingildədi bu SÖZün gözəgörünməz zərbindən. Ömrü boyu bircə yol belə tərpənməyən ağırgövdəliləri yerindən dəbərtdi bu SÖZün zəlzələsi, bu SÖZün vəlvələsi:

**Kabinetlər silkələnir, telefonlar zingildəyir.**  
**Yer titrəsə tərpənməyən bir sözündən dingildəyir.**

"Azərbaycan"ı zərrəbindən keçirir senzura kərrat-kərrat. Qıpqırmızı qana boyayıb qəzetin səhifələrini. Hər cümlədə qırmızı ilan tək dikəlir qırmızı nida işarələri. Hər abzas sanki qırmızı kəfənə bürünüb. Bu qəzetin qan qoxulu səhifələrindən vahimələnir qandan qorxmayan hökumət hərisləri:

**Səhifələr qan-qırmzı, hər baxanın yüz əmması,**  
**Qan içində qorxmayanın sözdən qorxmaq müəmması.**

Üz-üzə, göz-gözədir iki nəfər MK binasında. Biri MK katibi, o biri Sabir Rüstəmxanlı. Biri imperiya keşikçisi, imperiya nökəri, o biri istiqlal yolçusu, istiqlal əsgəri. Biri rus mentalitetli, rus tərbiyəli, o biri milli köklü, milli ruhlu. Katib yağdırır cəllad hökmlü hədələri Sabir Rüstəmxanlının üstünə. Çalışır ki, qorxutsun, sarsıtsın, sındırsın Sabir Rüstəmxanlını. Kremlin qəti qərarını dönə-dönə xatırladır Sabir Rüstəmxanlıya - ya "Azərbaycan" qapadılmalı, ya da Sabir Rüstəmxanlı həbs edilməlidir. Bu hədələrdən-təhdidlərdən tükü də tərpənmir Sabir Rüstəmxanlının. Nazim Hikmət demişkən, bu çığır-bağırlar, bu hədələmələr, bu təhdidetmələr Sabir Rüstəmxanlıya "vız gəliyor, vız!"

**Hədələrdə cəlad hökmü, Moskvanın əmri qəti:**  
**Öz ömrünü qapadırsan qapatmasan bu qəzeti.**

Razılaşmadan ayrılırlar: katib öz haqsız hökm- iddiasında. Sabir Rüstəmxanlı öz haqlı inam-inadında. Katibin hökm-iddiasında məğlubiyyət.

Sabir Rüstəmxanlının inam-inadında qalibiyyət: "Azərbaycan" bağlanmadı. "Azərbaycan" yasaqlanmadı. "Azərbaycan" əllərdə bayraqlandı, dalğalandı. Millətin-xalqın güvənci oldu Sabir Rüstəmxanlının döyüş himni "Azərbaycan". Razı idi Sabir Rüstəmxanlı hər gün "tənbeh" edilməsinə. Fəqət razı deyildi "Azərbaycan" səsinin batırılmasına. "Azərbaycan" səsinin alınmasına!

**Dedim, sözüm, gözün aydın! Millətimin güvəncisən!**  
**Çox olacaq zirvə aşan bu zirvədə birincisən!**  
**Gözün aydın, "Azərbaycan!" Döyüş himnim, alın yazım,**  
**Hər gün mənə "dərs" versinlər, təki səsin alınmasın!**

Bitmir-tükənmir. Sona varmır. Səngimir Sabir Rüstəmxanlının istiqlal savaşları, istiqlal çarpışları.

Parçalanmış-paralanmış Azərbaycan vahidləşməyincə, bütövləşməyincə, əzəmətli-möhtəşəm, güclü-qüdrətli Azərbaycan qurulmayınca uzanar, bitməz-tükənməz Sabir Rüstəmxanlının istiqlal savaşları, istiqlal carpışları!

S.Rüstəmxanlı istiqlal savaş və çarpışlarında inamlı-ümidlidir, qətiyyətli-inadlıdır gələcəklərin, arzu-istəklərin gerçəkləşəcəyinə, çiçəkləşəcəyinə! Türk ellərinin bir bayraq işığında əbədi isinəcəyinə!

**Yakutlardan üzü bəri bir qardaşdı yaxın-uzaq:**  
**Türk, azəri, türkmən, tatar,**  
**Özbək, başqırd, qırğız, qazax.**  
**Kim aranı kəsəcəksə, bu savaşı uduzacaq**  
**Yenmək üçün doğulmuşuq, sərtik Tanrı işığıtək.**  
**Bir babanın övladıyıq, Türkük Tanrı işığıtək.**